| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 23.12.2003 |
| QEYDİYYAT NÖMRƏSİ | 565-IIQ |
| ADI | Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 29-02-2004, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 56) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 020.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:

1. Hərbi silah və sursat istehsal etmək üçün avadanlıq.

2. Döyüş təyinatlı hərbi texnikanı istehsal etmək üçün avadanlıq.

3. Xidməti və mülki silah.

4. Kosmik-peyk rabitə vasitələri, xüsusi məxfi rabitə vasitələri və şifrləri, bu vasitələrin və şifrlərin istehsalı üçün nəzərdə tutulan avadanlıq.

5. Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsulları tullantılarının emalı vasitələri.[1]

6. İonlaşdırıcı şüa mənbələri, o cümlədən radioaktiv maddələr, belə mənbələrin və maddələrin istehsalı üçün nəzərdə tutulan avadanlıq, təsərrüfat-məişət və tibbi əhəmiyyətli aparatlar istisna olmaqla, şüa verən aparatlar.

7. Qiymətli kağızların çap edilməsi üçün avadanlıq və belə avadanlığın istehsalı üçün avadanlıq.

8. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq.[2]

9. Partlayıcı maddələr və qurğular, tez alışan maddələr və pirotexniki məmulatlar.

10. Ozondağıdıcı maddələr və tərkibində belə maddələr olan məhsullar.

11. Narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələr, həmin maddələri hazırlamaq və ya emal etmək üçün avadanlıq.

12. Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələr.

13. Radiomüşahidə və radionəzarət aparmaq üçün geniş tezlik diapazonlu radioqəbuledici qurğular.

14. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən güc meyarı həddindən artıq olan radioötürücülər.

*15. Əməliyyat-axtarış fəaliyyəti subyektlərinin, hərbi qulluqçuların və prokurorluq işçilərinin fərqlənmə nişanları olan hərbi və xüsusi geyim formaları.*[3]

*16. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulan genetik modifikasiya olunmuş bitkilər, həmçinin müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları.*[4]

*17. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulan, genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları.*[5]

*18. Məsafədən idarə edilən pilotsuz uçan aparatlar.*[6]

*19. Gözün buynuz qişası.*[7]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 dekabr 2003-cü il
565-IIQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 04 mart 2005-ci il tarixli 849-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 273**)

2. 30 dekabr 2005-ci il tarixli **48-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 73**)

3. 17 aprel 2007-ci il tarixli **320-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 562**)

4. 01 fevral 2013-cü il tarixli **554-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti 13 fevral 2013-cü il, 56 , “Azərbaycan” qəzeti 17 mart 2013-cü il, 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 210 )**

5. 02 may 2014-cü il tarixli **951-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 5 iyun 2014-cü il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 06, maddə 602)**

6. 17 may 2016-cı il tarixli **251-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 29 iyun 2016-cı il, 138 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 994)**

7. 25 aprel 2017-ci il tarixli **655-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 24 iyun 2017-ci il, 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1040**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 17 aprel 2007-ci il tarixli **320-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 562**) ilə 5-ci bəndində “**Qızılın**” sözü “**Qiymətli daşların hasilatı, qızılın**” sözləri ilə əvəz edilmişdir.

[2] 30 dekabr 2005-ci il tarixli **48-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 73**) ilə 8-ci bənddən “**və prekursorlar**” sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~8. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr və prekursorlar, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr və prekursorlar, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq.~~

[3] 04 mart 2005-ci il tarixli 849-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 273**) ilə 15-ci bənd əlavə edilmişdir.

[4] 01 fevral 2013-cü il tarixli **554-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti 13 fevral 2013-cü il, 56 , “Azərbaycan” qəzeti 17 mart 2013-cü il, 60, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 210** ) ilə yeni məzmunda 16-cı maddə əlavə edilmişdir.

[5] 02 may 2014-cü il tarixli **951-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 5 iyun 2014-cü il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 06, maddə 602**) ilə 17-ci maddə əlavə edilmişdir.

[6] 17 may 2016-cı il tarixli **251-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 29 iyun 2016-cı il, 138 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 994**) ilə yeni məzmunda 18-ci maddə əlavə edilmişdir.

[7] 25 aprel 2017-ci il tarixli **655-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 24 iyun 2017-ci il, 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1040**) ilə 19-cu maddə əlavə edilmişdir.